# Aksiya ərazisində hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin edilir



Laçın-Xankəndi yolunda təşkil olunan aksiyanın 116-cı günündə də Rusiya sülhməramlılarına və Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus avtomobillər aksiya ərazisindən maneəsiz keçirlər.

Sülhməramlılara məxsus 38 avtomobilin Xankəndidən Laçın istiqamətinə sərbəst hərəkəti təmin edilib. Şəxsi heyəti daşıyan avtomobillərin ikisinin içində mülki vətəndaşlar olub. Gün ərzində indiyədək aksiya ərazisindən Rusiya sülhməramlılarına məxsus 57, Beynəlxalq Qırmızı Xaç Komitəsinin isə 9 avtomobili keçib.

❖ ❖ ❖

Laçın-Xankəndi avtomobil yolunun ekoloji aksiyanın keçirildiyi ərazisindən hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin edilir.

Sülhməramlılara məxsus üç yük avtomobilinin Xankəndidən Laçın istiqamətinə, iki yük avtomobilinin isə Laçından Xankəndiyə sərbəst hərəkəti təmin edilib. Gün ərzində indiyədək aksiya ərazisindən Rusiya sülhməramlılarına məxsus 16, Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus 9 avtomobilin keçməsinə şərait yaradılıb.

❖ ❖ ❖




Laçın-Xankəndi yolunda təşkil olunan dinc aksiyanın iştirakçıları ərazidən humanitar məqsədlər üçün istifadəyə növbəti dəfə şərait yaradıblar. Xankəndidən Laçın istiqamətinə hərəkət edən Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus 1 yük, 8 minik avtomobili ərazidən maneəsiz keçib.

Bu, bir daha göstərir ki, Ermənistanın blokada ilə bağlı səsləndirdiyi iddialar saxtadır. Laçın-Xankəndi yolu bütün humanitar məqsədli maşınlar və mülki şəxslər üçün açıqdır.

Qeyd edək ki, Qarabağda ekoloji istismara qarşı ötən il dekabrın 12-dən başlayan aksiya 116 gündür davam edir.

Azərbaycan.- 2023.-6 aprel.- S.8.